Müəllif: Vüqar Həsənbəyli
08.11.2012 16:36

# İsmayıl xan Ziyadxanlının siyasi və diplomatik fəaliyyətinə dair



Müstəqil Azərbaycan Respublikasının tarixində Azərbaycan Xalq Cümhuriyyəti iyirmi üç aylıq mövcudluğu respublikamızın son yüzillikdəki həyatında əsl siyasi renessans dövrü adlandırıla bilər. Həmin dövr yalnız milli dövlət quruculuğu ilə – bütün Yaxın Şərqdə, Türk və Müsəlman dünyasında ilk respublikaının təsisi, bir sıra demokratik siyasi islahatların həyata keçirilməsi ilə deyil, yeni tipli siyasi xadimlərin formalaşması, onların xalqın taleyi və gələcəyi üçün bütün məsuliyyəti öz üzərilərinə götürməsi ilə səciyyəvi idi. Həmin siyasi xadimlər Rusiyanın və Avropanın nüfuzlu universitetlərində təhsil alsalar da, ruslaşmamışdılar, ruhən və qəlbən öz vətənləri ilə, onları ərsəyə gətirən torpaqla bağlı idilər. Tarixi imtahan məqamı çatan kimi «millətlər içərisində öz millətlərinin imzasını qoymaq» üçün əllərindən gələni edirdilər. Azərbaycanın XX əsrdə yetişdirdiyi belə görkəmli şəxsiyyətlərdən biri də rus işğalçılarına qarşı qəhrəmancasına mübarizədə, döyüş meydanında həlak olmuş Gəncə xanı Cavad xanın nəticəsi, dövrünün tanınmış siyasi və dövlət xadimi İsmayıl xan Ziyadxanlı idi.

İsmayıl xan Ziyadxanlı Əbülfateh xanın övladıdır və 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında əhəmiyyətli rol oynamışdır. Əsil-nəcabətli Qacar elinə mənsub olan Ziyadxanlılara söykənir ki, bunlar Azərbaycanda yüksək məqama və şöhrətə malikdirlər. Bu tayfa Əmir Teymur zamanında Gəncəyə köçmüşdür.

İsmayıl xan Ziyadxanlı 1868-ci ildə Gəncədə dünyaya göz açmışdır. İsmayıl xan ilk təhsilini xüsusi müəllimlərin yanında almış, təhsilini Gəncə mədrəsəsində davam etdirmiş və oranı bacarıqla başa vurmuşdur. Sonra Moskva Universitetinin hüquq fakültəsinə qəbul olunmuş və oranı müvəffəqiyyətlə qurtarmışdır. O təhsilini başa vurduqdan sonra Tiflis şəhər Məhkəməsi baş hakiminin müavini vəzifəsinə təyin edilmişdir. Eyni zamanda o I Dövlət Dumasının deputatı

(1906), Kadet partiyasının üzvü olmuşdu.

İsmayıl xan Rusiyanın o vaxtkı paytaxtı Peterburqda təsis olunmuş Rusiya Milli Şurasının Birinci məclisinə Qafqazın Azərbaycan bölgəsinin müsəlmanları tərəfindən vəkil seçildi. Qanunvericilik sahəsində və nazirlərə tam səlahiyyət tələb etdiyindən bu məclis imperator II Nikolayın 1906-ci il iyununda verdiyi fərmanı ilə buraxıldı. Vıborq şəhərinin böyük bir mehmanxanasının salonunda Milli Şura Məclisinin sədri, Moskva Universitetinin məşhur mədəni hüquq professoru Muromstovun rəyasəti altında fövqəladə bir iclas təşkil etdilər. Uzun müzakirələrdən sonra bütün Rusiya millətlərinə müraciəti yekdilliklə qəbul edib bəyan etdilər. İsmayıl xan Vıborq şəhərində həmin məclisin müzakirələrində iştirak etmişdi və aşağıdakı müraciətə imza atmışdı. (5)

Bu haqda qardaşı Adil xan Ziyadxanlı (ADR-in İrandakı səfiri – S.T.) «Azərbaycan» əsərində yazır: «Millət Milli Şura Məclisinin açılışına qədər Milli Şuraya və nazirlərə tam səlahiyyət verməyincə nə qoşuna bir əsgər, nə də imperatorluq xəzinəsinə bir dinar vergi verməyin!… Vəkillər Finlandiyadan Peterburqa qayıtdıqdan sonra Rusiya imperatoru tərəfindən Ali Fövqəladə cəzə məhkəməsinin təşkili haqda fərman verildi. Bu məhkəmə istintaqsız olaraq bütün yuxarıdakı vəkillər həmən müraciətə qoşulduqlarına görə siyasi hüquqlarının bir qismindən məhrum edilməklə həbsə məhkum edildilər. Həbs müddəti qurtardıqdan sonra qardaşım İsmayıl xan Gəncəyə qayıtdıqdan sonra mən ondan soruşdum: «Onu hansı məntiq vadar etdi ki, həmən məclisdə iştirak etsin və müraciətə imza atsın?».

O, buyurdu: «Rusiya millətlərinin müqəddaratı yolunda birinci dərəcəli nümayəndələr belə bir addıma hazır olduqları bir vaxtda, əlbəttə, rəva deyildi ki, Qafqaz müsəlmanlarının vəkili, fəqət, öz şəxsinə dəyəcək zərərin qorxusundan belə bir addımdan kənar çəkilsin. Bundan sonra isə buyurdular ki, Rusiyanın vəziyyəti çox qorxuludur.

O bu dəqiqə böyük bir qaba bənzəyir ki, bir tərəfdən məsuliyyətsiz nazirlər onun bütün çıxacaqlarını, deşiklərini möhkəm bağlamışlar və o biri tərəfdən Rusiyanın hərarətli siyasətçiləri həm daxildə, həm də bu qabın altına atəş qoymuşlar. Rusiya millətlərinin bütün müqəddaratı güclü buxarla o qabın içində qaynayır. Biz Rusiya millətlərinin vəkillərinin əqidəsincə bu qorxunc qabın partlamasının qarşısın almaq üçün yeganə nicat qapısı ta səlahiyyətli Milli Şura Məclisidir. Bu nicat qapsın isə imperator öz yaxın müşavirləri ilə birlikdə bağlamışdır. Onun bu addımı biz vəkillərin fikrincə, gələcəkdə çox qorxulu olacaq. Çünki heç bir zəncir və bənd, həbs və cəza, heç bir istibdad-işgəncə aləti millətlərin müqəddaratının təbii inkişafının qarşısını ala bilməz». (1, səh. 19-20)

Bununla bağlı T.Svyatoxovskinin 1985-ci ildə Kembric Universitetində nəşr etdirdiyi «Rus Azərbaycanı. 1905-1920» əsərində İ.Ziyadxanlının Dumadakı çıxışı haqda belə yazır: «…Ziyadxanlı «Tatar-erməni müharibəsi» ilə bağlı Dumadakı bəyanatında qeyd edirdi: «Biz müsəlmanlara, siz ermənilər iqtisadi cəhətdən köləsi oldunuz, silahlanmanız və öz dövlətinizi qurmağı planlaşdırırlar, sizi məhv etməyimizi dedilər. Ermənilərə də panislamizmin müsəlman camaatına bütün mərhələrlə kök saldığı və bir gün müsəlmanların onları qətl edəcəyi söyləniildi. Bu qızışdırma siyasəti idi. Bakıda müharibə başlayınca, əldə yetərli əsgər olmadığı, çatışmazlıq yaranacağını əvvəlcədən düşünülmədiyi kimi bəhanələr axtarmağa başladılar (müəllif burada rusları nəzərdə tutur – S.T.). Daha sonra ziddiyyətlər milli düşmənçilik təməlində ortaya çıxdığı söylənildi…». (8, s. 72.)

Xalqın milli azadlıq hərəkatının gücləndiyi bir şəraitdə Dövlət Dumasında Azərbaycan nümayəndələrinin, məsələn, deputatlardan X.Xasməmmədovun və İ.Ziyadxanlının ana dilində təhsil, zemstvo (yerli idarə) tətbiq etmək və s. haqqında səsləri eşidilirdi. Onlar Zaqafqaziyada zemstvolar yaradılmasının ləngidilməsinə etiraz edir, rus olmayan xalqların milli dilinin icbari fənlər sırasına daxil edilməsinin, məhkəmə işlərində milli dilin işlədilməsini irəli sürürdülər. Onların Duma iclaslarında çarizmin köçürmə siyasəti ilə bağlı çıxışları daha cəsarətli idi. Gəncəli deputatlar çarizmin yerli xalqlara münasibəti məsələsinə də toxunur, müsəlman əhaliyə pis münasibət məhz Qafqazda əsrlərlə qonşuluq edən xalqlar arasında narazılıqlara, hətta millətlərarası qırğınlara gətirib çıxarır.

# İsmayıl xan □bülf□t xan oğlu Ziyadxanlı

Müəllif: Vüqar Həsənbəyli
08.11.2012 16:36




[redacted]


870
11.12

[illegible]